

# YAXŞI Kİ, VARSINIZ

Bu gün Azərbaycanın ilk poliqrafçı alimi, iqtisad elmləri namizədi, Azərbaycan, Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü Şəddat Cəfərovun doğum günüdür.

Şəddat Cəfərov 1940-cı ildə Bakı şəhərində anadan olmuşdur. Əslən Lənkəran rayonu Gərmətük qəsəbəsindəndir. O, 1955-ci ildə 44 saylı orta məktəbin yeddinci sinfini bitirərək 26 Bakı Komissarı adına (indiki 1 saylı) mətbəədə sinkoqrafiya sexində şagird kimi əmək fəaliyyətinə başlamış, təhsilini 57 saylı axşam fəhlə-gənclər məktəbində davam etdirmiş və 1959-cu ildə orta təhsilini başa vurduqdan sonra hərbi xidməti borcunu yerinə yetirmişdir.

Mən fəxr edirəm ki, müəllifi olduğum 8 kitabdan altısı yəni "Ulu Naxçıvanım", "Könüllərə yol gəzirəm", "Möhtəşəm Zəfərin Nişanəsi", "Zəfəri nurlandıran Nurlan", "Ulu Öndərin İşığında" və "Suverenliyimizi təmin edənlər" adlı kitablarım məhz Şəddat Cəfərovun rəhbərlik etdiyi mətbəədə işıq üzü görmüşdür. "Zəfəri nurlandıran Nurlan", "Ulu Öndərin İşığında" və "Suverenliyimizi təmin edənlər" adlı kitablarıma geniş məzmunlu rəy yazmış, yaradıcılığımın hər anını izləmiş və mənimlə bağlı mətbuatda məqalələri dərc olunmuşdur.

Həmçinin yuxarıda adlarını qeyd etdiyim 6 kitabımın nəşriyyatda yığılma prosesini heç vaxt unuda bilmərəm. Dəfələrlə Şəddat müəllim otağa daxil olub, mənimlə və kitabın yığılma prosesi ilə maraqlanırdı. Mənə daima hörmət və qayğı göstərmişdir.

İşçiləri də özü kimi səmimi və mehribandırlar.

Hörmətli Şəddat müəllimi doğum günü münasibəti ilə ürəkdən təbrik edirəm. Ona uzun ömür, can sağlığı və işlərində uğurlar arzu edirəm!

Nə yaxşı ki, varsınız, Şəddat müəllim! Allah sizi qorusun!

***2026***

***SEVİNDİK NƏSİBOĞLU***